**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№378/4** **13 avqust 2025-ci il**

**Gənclərin audit fəaliyyətinə geniş cəlb olunmasının həlli istiqamətlərinin tətbiqinə dair keçirilmiş sorğunun nəticələrinə dair hesabat barədə**

Auditorlar Palatasının sədri tərəfindən 2025-ci il 20 fevral tarixində təsdiq edilmiş "Gənclərin audit fəaliyyətinə geniş cəlb olunmasının həlli istiqamətlərinin tətbiqinə dair sorğunun keçirilməsi barədə" plan-proqramın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında 2017-ci il 28 noyabr tarixində imzalanmış əməkdaşlıq sazişinə uyğun olaraq gənclər arasında audit peşəsinə marağın artırılması, onların bu peşəyə daha geniş cəlb edilməsi məqsədilə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələri arasında keçirilmiş sorğunun nəticələrinə dair Palatanın Kadr hazırlığı idarəsi (E.Hacıyeva) tərəfindən təqdim edilmiş hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbələri arasında "Gənclərin audit fəaliyyətinə geniş cəlb olunmasının həlli istiqamətlərinin tətbiqinə dair" keçirilmiş sorğunun nəticələrinə dair hesabat nəzərə alınsın (əlavə olunur).

2. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki:

2.1. bir ay müddətində təklif olunan istiqamətlərin Auditorlar Palatasının 2026-cı il üzrə iş planına daxil edilməsi barədə Tədbirlər Planının layihəsi hazırlanıb təqdim edilsin;

2.2. bu sorğunun nəticələrinin və sorğu əsasında hazırlanmış Tədbirlər Planının Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllim və tələbə heyətinin nəzərinə çatdırıması məqsədilə 2025-ci ilin oktyabr ayında konfransın keçirilməsi təmin edilsin.

3. Bu qərarın və keçirilmiş sorğunun nəticələrinə dair hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**